# Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı qeyd olundu

***Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində FHN-in yaradılmasının 11-ci ildönümünə həsr olunmuş tədbir keçirmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, Şimal-qərb Regional Mərkəzinin rəisi Sadiq Bəkirli və Fövqəladə Hallar Nazirliyinin regionda fəaliyyət göstərən qurumlarının əməkdaşları iştirak etmişlər.***



Tədbir iştirakçıları tərəfindən əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzi xiyabanında ucaldılmış abidəsi önünə gül dəstələri qoyulmuş, dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla yad olunmuşdur.

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin inzibati binasında davam edən rəsmi mərasimi mərkəzin rəisi Sadiq Bəkirli açaraq FHN-nin yaranma tarixindən və zərurətindən danışmışdır.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov tədbirdə çıxış edərək Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin bütün əməkdaşlarını FHN-nin yaranma günü münasibətilə təbrik etmiş, onlara şərəfli və çətin işlərinin yerinə yetirilməsi sahəsində uğurlar arzulamışdır. Abil Ağasəfov çıxışında ümummilli lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" sözlərini əsas gətirərək, ölkə başçısı cənab İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin qarşısında qoyduğu vəzifələri bu gündən sonra da layiqincə yerinə yetirmək üçün hər bir əməkdaşın üzərinə böyük vəzifələrin düşdüyünü qeyd etmişdir.

Mərasimdə Fövqəladə Hallar Nazirliyinin regionda fəaliyyət göstərən qurumlarının nümayəndələri peşə bayramı ilə əlaqədar çıxış etmişlər.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Multikulturalizm bizim yaşayış tərzimizdir

***Yaşarlı Səidə Asim qızı Qəbələ rayonunun Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbinin IX sinif şagirdidir. Əla qiymətlərlə oxuyur. Keçən il Qəbələ rayonunda keçirilən müsabiqədə kimya fənni üzrə ikinci yeri tutub. Təhsildə qazandığı uğurlara görə bu il "Ölkəmizi tanıyaq" adlı tur-aksiyada iştirak edib. Tarix və etnoqrafiya mövzusunda yazdığı məqalə seçimlərdə qalib gəldiyi üçün həmin yazını oxuculara təqdim edirik.***

"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümümdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir." - deyən ulu öndər Heydər Əliyev haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. Dinc yanaşı yaşamaq prinsipi həmişə Azərbaycan cəmiyyətinin səciyyəvi cəhəti olmuşdur. Hətta mənfur erməni millətçilərinin Dağlıq Qarabağda törətdikləri qanlı müharibədən, xalqımıza qarşı törətdikləri soyqırımlarından sonra da Azərbaycan cəmiyyəti dini və etnik qruplar arasında harmoniyanı dəstəkləməkdə davam etmişdir. Ölkəmizdə multikulturalizm bir kampaniya deyil, Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasi, ideoloji kursudur.

Qonaqpərvərliyi, ürəkaçıqlığı, mərdliyi, tolerantlığı ilə tanınan xalqımızın bu çoxəsrlik multikultural ənənəsi ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən prioritet seçildi. Heydər Əliyev Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası onun qeyd etdiyi kimi "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etdi.

Ulu öndər etnik millətçiliyə alternativ kimi azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, sonda etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir.

**(Ardı 5-ci səhifədə).**

# Ana dilimizə hörmət həmrəyliyimizin əsas göstəricisidir

***3 saylı tam orta məktəb Qəbələ şəhərində yeganə tədris ocağıdır ki, burada rus dili bölməsi də mövcuddur. Vaxtilə məktəbdə təhsil bütünlüklə rus dilində idi. Ötən əsrin 80-cı illərinin sonunda baş verən məlum hadisələr zamanı yalançı «millət qəhrəmanları»nın təhriki nəticəsində bu məktəbdə rus dili bölməsi demək olar ki, ləğv edildi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə dönüşü təhsil sahəsində də yaranmış böhranı aradan qaldırdı. Ulu öndər sübut etdi ki, qloballaşan dünyada özünə qapılıb qalmaq, dünyadan təcrid olmaq elə özünü məhv etmək deməkdir. Dünyanın quru ərazisinin yeddidə birinə malik olan qonşu nəhəng Rusiya Federasiyası ilə yüz illərdən bəri davam edən siyasi-iqtisadi əlaqələri bir andaca sökübatmaq mümkün deyildi.***



Beləliklə Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin rus dili bölməsinə qəbul olunmaq istəyən şagirdlərin sayı yenidən çoxalmağa başladı. Bu gün həmin məktəbdə rus dilində təhsil alan şagirdlərin sayı Azərbaycan bölməsində oxuyan şagirdlərin sayı ilə təxminən eynidir. Bununla belə rus dilində təhsil alan siniflərdə də vətənimizin tarixinin və Azərbaycan dilinin tədrisinə xüsusi diqqət yetirilir.

Bu günlərdə məktəbin rus bölməsinin 5-ci sinifində Azərbaycan dili fənnindən keçirilən açıq dərsin gedişi dediklərimizi bir daha təsdiq etdi. Dərsin mövzusu «Vətən dedikdə nəyi başa düşürsünüz?» idi. Dərs Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı. Sonra nümayiş etdirilən videoçarxda Səməd Vurğunun «Azərbaycan» şeiri Vətənimizin dilbər güşələrinin görüntüləri fonunda səsləndirildi. Fənn müəllimi Vəfa Alxaslının «Səsləndirilən şeirdə təsvir olunan gözəlliklər haradadır» sualı şagirdlər tərəfindən çox dolğun cavablandırıldı. Müəllim yazı lövhəsinə dairənin ortasına «Vətən» sözü yazaraq bu kəlmə haqqında nə deyə bilərsiniz-deyə soruşdu. Digər cavablarla bərabər Vətənə sinonim olaraq «Ana» kəlməsini işlədənlər daha çox oldu. Daha sonra şagirdlər Vətən və ana sözləri arasındakı oxşar və fərqli cəhətləri söylədilər.

Müəllim yazı lövhəsinə yazılmış müəllim, həkim, mühəndis, zabit və sair kimi peşə və sənətlərin ortaq cəhətlərini soruşdu. Yekdil fikir eyni oldu: «Vətənə xidmət edir».

Şagirdlər dərsin yekunu olaraq Vətən haqqında mülahizələrini və Vətənə həsr olunmuş şeirlər söylədilər.

Müxtəlif fikirlərin ana xəttini bir ortaq fikir təşkil edirdi: Vətən dediyimiz məfhum sadəcə bir torpaq parçası deyil, Vətən babalarımızın qanı, canı bahasına qoruyub saxladıqları və bizə əmanət etdikləri ən qiymətli mirasdır. Ana dilimiz Vətənimizin, xalqımızın varlığının simoludur, onu öyrənmək, sevmək, qorumaq hər bir vətən övladının borcudur.

Yekunda məktəbin rəhbərliyi, digər fənn müəllimləri və valideynlər açıq dərsin mövzusu və təşkili barədə müsbət rəylərini bildirdilər.

✍ **Aynur QƏDİROVA, məktəb direktorunun müavini.**